# Müəllim ömrü



**Müəllim ömrü... Ömürlərə paylanan ömür... O, da ömrünü yüzlərin, minlərin ömrünə gilə-gilə, qətrə-qətrə payladı. Hələ 20 yaşında ikən gənc müəllim kimi fəaliyyətə başlayıb, uzun bir yola çıxdı, qara saçlarını bəyazladı, yaşa doldu, yarım əsrlik bir dövr ərzində hər şeydən çox sevdiyi məktəbindən ayrılmadı. Onun üçün məktəb həyatın özü idi, məktəblə yaşayır, məktəblə nəfəs alırdı. Bu illərdə təlim-tərbiyəsi ilə məşğul olduğu övladlarının həqiqi vətəndaşlar kimi formalaşması üçün Vətəninə, xalqına təmənnasız xidmət etdi. Təhsil sahəsində nüfuz sahibi oldu, el-obada hörmət və sevgi qazandı...**

Mübariz Nəsirov 1940-cı ildə Böyük Qafqazın şərqində - Ləngəbiz dağ silsiləsinin cənubunda - Ağsu rayonunun Gəgəli kəndində anadan olub. Müharibə dövrünə düşdüyü üçün uşaqlığı çətin keçmişdi. Orta məktəbdə yaxşı oxuyur, həm də ailəyə kömək edirdi. Böyük savaş başa çatsa, görünən yaralar sağalsa da o dövrün ziyalıları daha dərində, ürəklərdə olan gözəgörünməz qəlpələri təmizləməli, mənəvi sağlamlıq ab-havası yaratmalı idilər. Bu işdə müəllimlər ön sırada gedirdi. Bu sənətə, bu müqəddəs peşəyə də sevgi elə həmin vaxtlarda yaranmışdı, müəllim olmaq, sevimli müəllimləri kimi el-obada hörmət qazanmaq arzusu onun kiçik ürəyini dağa döndərirdi bəzən. İllər isə bir-birinin ardınca ötür, onu arzusuna bir az da yaxınlaşdırırdı. 1957-ci ildə o vaxtlar M.F.Axundov adına Dillər İnstitutu adlanan ali məktəbin rus dili fakültəsinə daxil olan Mübariz Nəsirov 1960-cı ildə həmin institutu müvəffəqiyyətlə bitirib öz doğma kəndinə, Gəgəli kənd orta məktəbində rus dili müəllimi kimi fəaliyyətə başladı, uzun illər məktəbin tədris işləri üzrə direktor müavini işlədi, ömrünün 51 ilini müqəddəs bir sənətə - müəllimliyə həsr etdi.

Deyirlər öz peşəsini sevən, öz işini mükəmməl bilən və onu şərəflə, ləyaqətlə, vicdan və halallıqla yerinə yetirən insandan bütün bəşəriyyət, o cümlədən vətəni, xalqı, dövləti, ailəsi də heç bir ziyan görməz, çünki belə insanlar təmkinli, səbirli, müdrik olurlar. Mübariz müəllim də belə insan, belə müəllim idi. O deyirdi: "Hər bir sənət sahibi öz işinin bəhrəsini görəndə sevinir. Müəllim sənətinin bəhrəsi böyük və qiymətlidir. Ona görə ki, bütün alim, mütəxəssis və sənətkarlar müəllimlərin yetişdirmələridirlər, onlara elmlərin əsasını müəllim verir, müstəqil həyata hazırlayır. Bu mənada, mən çox xoşbəxtəm ki, həyatda özümə ən çətin, ən şərəfli və müqəddəs bir sənət seçmişəm. Bir vaxt qocaman müəllimlərimin xalq arasındakı hörmətini görüb onlara həsəd aparır: "Nə xoşbəxt adamdır, ona belə hörmət edirlər" - deyə düşünürdüm. İndi hər kəs, vaxtilə dərs dediyim uşaqlar da, onların valideynləri də məni hörmətlə qarşılayır. Bu ən böyük mükafatdır".

Zəngin pedaqoji təcrübəyə malik olan Mübariz müəllimi tədrisin keyfiyyəti həmişə düşündürürdü, tədris işləri üzrə direktor müavini işlədiyi dövrdə onun üzərinə daha çox iş düşür və bu işin məsuliyyətini də çox gözəl anlayırdı. Özünün də dediyi kimi, əgər təlim-tərbiyə işləri üzrə direktor müavini yerindədirsə, onda bütün işlər öz axarını tapar. Məhz bu baxımdan da o, üzərinə düşən vəzifəni layiqincə icra edir, məktəb rəhbərinin yaxın köməkçisi olurdu. Məsuliyyətinə, zəhmətsevərliyinə görə hamı ona hörmət edirdi. Doğma məktəbində hamı ona ağsaqqal kimi hörmət bəsləyirdi. Mübariz müəllim həm də gözəl ailə başçısı idi, doqquz övladı - 5 oğlu, 4 qızı, 27 nəvəsi, 13 nəticəsi var... Bu gün dəyərli vətəndaş kimi yetişdirdiyi övladları, nəvələri xalq təsərrüfatının müxtəlif sahələrində çalışır, Mübariz müəllimin adını uca tuturlar.

Xalq yazıçısı Mirzə İbrahimov yazırdı: "Dünyada qibtə etdiyim bir sənət varsa - müəllimlikdir, onun şərəfi, qayəsi hər şeydən ucadır, xalqın gələcəyi onun əlindədir. Müəllim! Nə qədər böyük iftixara layiq bir ad!". Bu sözlər müəllimlərə ünvanlanmışdır. Mübariz müəllim də ömrünü uşaqların yolunda şam kimi əritmiş, həyata vəsiqə alan neçə-neçə gəncin təlim-tərbiyəsi ilə məşğul olmuş, onların savadlanmasına bütün ömrünü sərf etmişdi.

Təbii ki, insan ömrü yaşadığı illərin, ayların, günlərin sayı ilə deyil, xalqına, elinə gərəkliyi, əməllərilə ölçülür. Balalarımızın mənəvi aləminin formalaşmasını ömrünün əsas mənası hesab edən Mübariz müəllimin Azərbaycan maarifinin yüksəlişində və bugünkü nailiyyətlərində xüsusi payı vardır. Milli məktəbimizin inkişafı, uğurları onun kimi şəxsiyyətlərin adı ilə bağlıdır.

Mübariz müəllim xoşbəxt taleli insandır, çünki həyatının ən yaxşı illərini, əqlinin zəkasını, gözünün nurunu, qəlbinin hərarətini sərf edib, tərbiyə verdiyi şagirdləri bu gün Azərbaycanımızın müstəqilliyinin qorunub saxlanılması uğrunda mübarizə aparır, respublikamızın inkişafı və çiçəklənməsi naminə əzmlə çalışırlar.

Yüzlərlə şagirdinə elm, bilik, həyat dərsi verən Mübariz Nəsirov 2018-ci ilin oktyabrında 79 yaşında dünyasını dəyişib. Ömrünü ömürlərə paylayan Mübariz müəllimin xatirəsi onu sevənlərin qəlbində, ömründən ömür payı alanların xatirəsində daim yaşayacaqdır. Şair Musa Yaqubun şeirində deyildiyi kimi:

*Bizimlə həmyaşdır, bitməz yorulmaz,*
*Daima yol gedir müəllim ömrü,*
*Hamıya pay verib ömründən bir az*
*Məndədir, səndədir müəllim ömrü...*

**İlham PƏNAHOV,**
**"Respublika".**

Respublika.- 2019.-20 dekabr.- S.7